Respublika.- 2025.- 1 mart (№ 46).








# Yasamal rayon kitabxanalarında anım tədbirləri

*Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) Mərkəzi Kitabxanası və kitabxana filialları Xocalı faciəsinin 33-cü ildönümü ilə əlaqədar tədbirlər keçirdilər.*

Bu barədə verilən məlumata görə, M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasının 158 №-li tam orta məktəbdəki tədbirdə Xocalı qurbanlarının və günahsız insanların başına gətirilən müsibətlərdən söz açan məktəbin ibtidai sinif müəllimi Zəmləkət Zamanova qeyd etdi ki, Ümummilli Lider Heydər Əliyev Xocalı soyqırımının tanınmasının təşəbbüskarı olmuşdur. Tədbirdə çıxış edən Uşaq şöbəsinin müdiri Sevil Namazova Xocalı faciəsinin yalnız xalqımıza qarşı deyil, ümumilikdə, insanlıq əleyhinə, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayət olduğunu qeyd etdi.

Ə.Vahid adına 1 №-li və A.Şaiq adına 2 №-li kitabxana filiallarının T.Abbasov adına 225 №-li tam orta məktəbdə keçirdikləri tədbirlərdə Xocalı soyqırımı haqqında şagirdlərə məlumat verildi. 1 №-li kitabxana filialının müdiri Mətanət Qasımova Xocalı faciəsinin əsrin qanlı faciəsi kimi yaddaşlara həkk olunmasından, Xocalı soyqırımının baş verdiyi o dəhşət dolu gecənin göylərə ucalan fəryadından, ağrı-acısından, bitməyən iztirablarından danışdı.

Q.Musabəyov adına 3 №-li kitabxana filialının və C.Cabbarlı adına 161 №-li tam orta məktəbin təşkilatçılığı ilə Yasamal Rayon Heydər Əliyev Mərkəzində keçirilən "Xocalı 33 il" adlı tədbirdə Birinci Qarabağ müharibəsi şəhidi, Milli Qəhrəman Allahverdi Bağırovun həyat yoldaşı Validə Bağırova, qızı Aynur Bağırova, İkinci Qarabağ müharibəsi şəhidi Mehman Qəmbərovun həyat yoldaşı Xuraman Qəmbərova, şəhidin oğlu Ceyhan Qəmbərov, İkinci Qarabağ şəhidi Elnur Rüstəmovun oğlu Elcan Rüstəmov, kitabxana filialının əməkdaşları, 161 №-li tam orta məktəbin müəllim və şagirdləri iştirak etdilər.



X.B.Natəvan adına 4 №-li kitabxana filialında keçirilən "Xocalı qurbanları" tədbirində qeyd olundu ki, Xocalı faciəsini törətməklə ermənilər xalqımızın mübarizə əzmini qırmaq, tarixi torpaqlarımızın bir qisminin itirilməsi ilə barışmağa məcbur etmək istəyirdilər. Hiyləgər düşmən məqsədinə çata bilmədi, xalqımız öz dövlət suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə daha da mətnləşdi, qəhrəmanlıq və dəyanət nümayiş etdirdi.

Tədbirlərin bədii hissəsində 158 və 161 №-li tam orta məktəblərin şagirdləri Xocalı faciəsinə həsr olunmuş şeirlər səsləndirdilər. "Xocalı soyqırımı", "Xocalı sən azadsan" adlı kompozisiyalar təqdim olundu.

M.Ş.Vazeh adına Mərkəzi Kitabxanada "Xocalı faciəsi - qan yaddaşımızdır" adlı videoçarx və Xocalı faciəsinə həsr olunmuş foto və kitab sərgisi hazırlandı.

Şotlandiyalı şair Graham Riçard Smit və Mərkəzi Kitabxananın Fəxri oxucusu, şair Zeynəb Cəmaləddin Xocalı faciəsinə həsr olunmuş şeirləri kitabxanaya təqdim etdilər.

**"Respublika".**